*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 22 noyabr 2014-cü il | № 89 (1906) | Qiyməti 25 qəpik

## General Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2015-ci ilin aprel ayında Azərbaycanın görkəmli hərbi xadimi, tanınmış hərbçi alim general-leytenant Əlağa İsmayıl ağa oğlu Şıxlinskinin anadan olmasının 150 illiyi tamam olur.

XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan general-leytenant Əlağa Şıxlinskinin 150 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim general-leytenant Əlağa İsmayıl ağa oğlu Şıxlinskinin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 noyabr 2014-cü il.

## Azərbaycan Respublikasının Müdafiə naziri Pakistanda bir sıra görüşlər keçirib

Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri ordu generalı Rəşad Mahmud və bu ölkənin Müdafiə naziri cənab Xavaca Məhəmməd Asif ilə görüşlər keçirib.

Görüşlərdə qarşılıqlı əməkdaşlıq və regional təhlükəsizlik məsələləri haqqında fikir mübadiləsi aparılıb. Tərəflər hər iki ölkənin Silahlı Qüvvələri arasında qarşılıqlı səmərəli əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Noyabrın 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Pakistan İslam Respublikasının Prezidenti cənab Məmnun Husseyn arasında görüş keçirilib. Səfər noyabrın 19-da başa çatıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatı təəssüf və təəccüb doğurur

Noyabrın 12-də cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqelərinə hücum edən Ermənistan silahlı qüvvələrinə məxsus Mi-24 tipli döyüş helikopterinin cavab atəşilə məhv edilməsi faktı ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərinin yaydığı bəyanat təəssüf və təəccüb hissi doğurur.

Bəyanata cavab olaraq bildiririk ki, qoşunların təmas xəttində heç bir neytral ərazi yoxdur və ola da bilməz. Ermənistan tərəfindən işğal olunmuş torpaqlar beynəlxalq ictimaiyyət tərəfindən tanınmış Azərbaycan Respublikasının əraziləridir.

Bəyanatda işlədilən "humanitar keçid" termini isə anlaşılmazdır və münaqişənin mahiyyətindən bixəbər olanlara hesablanıbdır. Hazırda bu ərazidə heç bir dinc sakin və ya mülki şəxs yoxdur ki, onların döyüş gedən ərazidən çıxarılması üçün hər hansı bir "keçid" və ya "dəhliz" açılsın.

"Ərazidə atəşin dayandırılması" və "ərazilərin minalardan təmizlənməsi" fikirləri isə tam əsassızdır və erməni tərəfinin maraqlarına hesablanıb. Bu, yalnız bir halda - Ermənistan silahlı qüvvələrinin tamamilə və qeyd-şərtsiz işğal olunmuş ərazilərdən çıxarılmasından sonra mümkün ola bilər.

Azərbaycanın daim qarşı tərəfi beynəlxalq hüququn norma və prinsiplərinə, müharibənin aparılması qaydalarına riayət etməsi çağırışına baxmayaraq, Ermənistan hər zaman bundan boyun qaçırır və cinayət törətməkdə davam edir.

Müdafiə Nazirliyi bir daha bildirir ki, düşmən tərəfi mütəmadi olaraq qəsdən bu ərazidə təxribatlar törətməklə məsələni qeyri-obyektiv formada təqdim etməyə cəhd göstərir və təəssüflər olsun ki, bu prosesə münaqişənin dinc yolla həll olunması missiyasını üzərinə götürən, obyektivlik nümayiş etdirməyə borclu olan beynəlxalq qurumları da öz mövqeyindən çıxış etməyə təhrik edir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Səngərin gecəsi-gündüzü olmur

***Horadizin payızının görkəmi bir duyum qədərincə kövrək olsa da, hökmü yoxdu. Ağacların yarpağını saraltsa da, saralmış yarpaqları budağından üzsə də, insanların iradəsini üşüdə bilmir. Niyə belədi, nədən belədi, gərək illərin o üzünü xatırlayasan, illərin o üzündə qalanların harayını düşünməlisən, bir də hərbçilərin baxışlarında çırpınan qətiyyəti duymalısan...***

Ali Baş Komandan İlham ƏLİYEV:
“Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir".



Ürəyim məni səngərlərə çəkməkdədi. Əsgərin ürəyi bildiyim səngərlərə, əsgərin ürəyi olan səngərlərə, əsgərin Vətən sevgisiylə isindiyi səngərlərə. Mənə elə gəlir ki, səngərlər ayaq səsimi eşidincə dirsəklənəcək, incik baxışları üzümdən üzülməyəcək, "Hardasan?" - deyəcək. Bu qınağın ağırlığı ruhumu sarsıdacaq, canımı üşəndirəcək, şübhəsiz. Öz günahımdı. Dözməliyəm...

Səngərlərə gedirik. Hərbi hissənin zabiti Fariz Hüseynovun müşayiətiylə...

Fariz Hüseynov bildirir ki, indiyə kimi tərxis olunan əsgərlərimiz xidməti xasiyyətnaməni adi kağız bilirdi. Müsbət xasiyyətnamə təqdim etməyənlərin dövlət müəssisələrində işlə təmin edilməməsi ilə bağlı göstərişlər bu münasibəti dəyişdi. Artıq əsgər bilir ki, xasiyyətnamə hərbi xidmət dövrünü ümumiləşdirir, mülki həyatda onun gərəyi olacaq.

Yol boyu bizi görüncə ayaq saxlayanları, qədərsiz sayğıyla salamlaşanları, əlini işdən üzüb qürurla bizə (əslində bizi müşayiət eləyən zabitə) baxanları görüncə, qərargahda zabit Musa Hüseynovun dediklərini xatırlayıram:

- Ötən avqust hadisələrində kəndlərin əli silah tutanları bizə müraciət elədilər, müdafiəyə kömək eləmək istədiklərini bildirdilər. Bu, zabitlərə də, əsgərlərə də böyük mənəvi dəstək oldu. Hərbçi mülki əhalini, mülki əhali əsgəri özünə arxa-dayaq bilirsə, düşmən qarşımızda həmişə aciz qalacaq. Ümummilli liderimiz Heydər Əliyevin arzuladığı kimi, əhali ilə hərbçilərin birliyi ordunun gücünü artıran amillərdəndir. Biz bunun nəticəsini gördük, indi də görürük. Aparılan islahatlar Silahlı Qüvvələrin döyüş hazırlığını təmin etməklə bərabər, əhalinin orduya inamının da artmasına təsir göstərib. Xalqla ordunun birliyinin yetərli olması, xalqın Ali Baş Komandana, orduya inamının gücü ilə deyə bilərik ki, torpaqlarımızı azad etməyə qadirik. Biz də Müdafiə nazirinin "Ən yaxşı silah yaxşı öyrədilmiş əsgərdir" tövsiyəsinə əsaslanıb əsgərlərin döyüş hazırlığını daim artırmağa səy göstəririk.

Yeri gəlmişkən onu da qeyd edim ki, hərbi xidmətdə fərqlənənlərə qiymətli hədiyyələr, fəxri fərmanlar təqdim edilməsi, bəzilərinin məzuniyyətə buraxılması, əsgərin daha nümunəvi xidmət etməsində mühüm əhəmiyyətə malikdir.

...Keçib getdiyimiz kəndlərin yollarında işə, evə tələsənlərin, doqqaz qapılarında "atüstü söhbətləşənlərin" baxışlarında ötərgi bir narahatlıq sezilir. Bu narahatlıq Vətənin narahatlığıdı, işğal altında qalan torpaqlarımıza ad olan həsrətin narahatlığıdı. Fariz qarşıda görünən, könül küsdürən binalardan üzülməyən baxışlarımı sezincə "Cəbrayılın Cocuq Mərcanlı kəndidi" deyir. Bir vaxtlar çal-çağırı, şamartısı Arazın ləpədöyənini titrədən Cocuq Mərcanlı. Evlər uçub-sökülüb - xarabalığı xatırladır (ifadəyə görə mərcanlılar məni qınamasın). Uşaqlığımda bir kəlam eşitmişdim: "Gözlər olsun, görməsin". Dar macalda jurnalist dostum Musa Mərcanlı düşür yadıma. Tələbəykən Mərcanlıdan söz düşəndə sinəsi ürəyinə darlıq eləyən Musa Mərcanlı. Bəs indi? Rastlaşsaq, Mərcanlıdan nə danışar? Qədərsiz təəssüflə, ürək ağrısıyla, adını ədəbi soyadı elədiyi kəndinin bu günündən yana-yana danışar...

Budur müharibə...

Ermənilik budur...

Beynəlxalq təşkilatların səlahiyyətliləri Cocuq Mərcanlını dəfələrlə görüb. Kəndin niyə bu günə düşdüyünü yaxşı bilsələr də, susurlar. Niyə susurlar?...

Öyrənirəm ki, hərbi hissənin zabitlərindən biri bu kənddəndi, vaxt tapanda uşaqlığının, yeniyetməliyinin ünvanına üz tutur. Ata yurdunun həyətində dayanıb baxdıqca baxır. Ürəyi gizildəyir. Güman ki, rütbəsindən çəkinməsələr, əsgərlər ona "Qisas qiyamətə qalmır, komandir. Qisas alınacaq. Cocuq Mərcanlının da, sənin ata yurdunun da", - deyərdi...

...Bu da səngərlər, səngərləri isidən əsgərlər... Baxışlarında çırpınan sevgini tütyə kimi gözlərimə sürtmək istədiyim əsgərlər...

Bura gəlincə zabit Musa Hüseynovla söhbətləşmişdik. Məlum olmuşdu ki, tabor Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətlərində döyüş tapşırığını yerinə yetirir. Olduqca çətin, təhlükəli relyefə malik ərazilərdi. Niyəsə, "Çətin deyil ki?" soruşuram. Gülümsünür. Bu çarəsiz təbəssümün içində bir narazılıq çırpındığını duyuram. Yəni, torpaqlarımız işğaldan azad edilməyincə çətinlik kəlməsini unutmalıyıq. Araya başaçılmaz sükut çökür. Zabitin sükut biçimli haqlı iradı məni də, Farizi də, qəzetimizin foto-müxbiri Namiq Arifoğlunu da duyğulandırır. Musa Hüseynov söhbətini davam etdirir:

**(Ardı 2-ci səhifədə)**

***Bir çox tanınmış ekspertlər, hərb işindən təcrübəsi olan siyasətçilər işğalçı dövlətə məxsus olan "Mi-24" helikopterinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilməsi faktına ədalətli mövqedən öz münasibətlərini bildiriblər. Azər TAc-a istinad etdiyimiz bu materialda tarix elmləri namizədi, Cənubi Qafqazın tarixinə və müasir həyatına dair çoxsaylı yazıların müəllifi, Qafqaz Strateji Tədqiqatlar İnstitutunun "Kavkaz & Qlobalizasiya" adlı beynəlxalq sosial-iqtisadi və siyasi tədqiqatlar jurnalının redaksiya heyətinin üzvü Oleq Kuznetsovun Rusiyanın "MİRAJ" İnformasiya Agentliyi üçün müsahibəsində ifadə edilmiş fikirlərini oxucularımıza təqdim edirik.***

## Oleq Kuznetsov: Dağlıq Qarabağdakı silahlı qüvvələr xarici muzdlulardan ibarət qanunsuz silahlı dəstədir

Bəri başdan deyim ki, bu, hər mənada görünməmiş hadisədir. Bu hadisəyə eyni zamanda bir neçə müstəvidən yanaşmaq olar, amma bütün hallarda bu, çox qeyri-adi hadisədir. Özünüz düşünün: azərbaycanlılar Ermənistan hərbi hava qüvvələrinin həmin helikopterini Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisində keçirilən hərbi təlimlərdə iştirak edərkən vurublar. Buna görə də ilk növbədə həmin təlimlərin kim tərəfindən və hansı məqsədlə keçirilməsi məsələsini aydınlaşdırmaq lazımdır. Hazırda Rusiyada yalnız rəsmi Yerevanın nöqteyi-nəzəri səsləndirilir və bu nöqteyi-nəzərə görə, noyabrın 10-dan başlayaraq Dağlıq Qarabağ ərazisində Ermənistan silahlı qüvvələrinin, hüquqi statusu və təşkili çoxlu suallar doğuran qondarma "dağlıq qarabağ respublikası" ordusunun birgə təlimləri keçirilirmiş.

Rəsmi məlumata görə, qondarma "dağlıq qarabağ respublikası" ordusunun şəxsi heyəti 18 min nəfərdir. Lakin 2012-ci ildə keçirilmiş son "prezident seçkiləri" zamanı səsvermədə 40 mindən az adam iştirak edib və bu faktı beynəlxalq müşahidəçilər, o cümlədən Rusiyadan olan müşahidəçilər də təsdiqləyiblər. Bu o deməkdir ki, "dqr"-də hər bir hərbi qulluqçuya cəmi bir yarım adam düşür. Buradan birmənalı şəkildə belə nəticə çıxarmaq olar ki, "dqr" silahlı qüvvələri sıralarında Ermənistandan və diasporun yerləşdiyi başqa ölkələrdən gəlmiş, əsasən erməni millətindən olan xarici hərbi muzdlular əksəriyyət təşkil edir. Ermənistanda bu muzdluları bildirən xüsusi hüquqi termin var: "yerkrapa" və ya "könüllü", onların hüquqi statusunu müəyyənləşdirən qanun qəbul olunub, mayın 8-i qanunvericilik yolu ilə onların peşə bayramı günü elan edilib. Bu ölkədə Ermənistan Respublikasının əvvəllər "könüllü əsaslarla" Dağlıq Qarabağ ərazisində hərbi xidmətdə olmuş vətəndaşlarını öz sıralarında birləşdirən "Yerkrapa Könüllüləri İttifaqı" adlı ictimai-siyasi hərəkat da mövcuddur. Erməni politoloji dilindən rus hüquqi dilinə tərcümə etsək, Dağlıq Qarabağdakı silahlı qüvvələr əsasən Ermənistan silahlı qüvvələrinin strukturlarına inteqrasiya etmiş və Dağlıq Qarabağ torpaqlarında işğalçı korpusdan ibarət olan qanunsuz silahlı dəstədir. Hərbi təlimləri də məhz onlar keçiriblər. Bu təlimlər zamanı Azərbaycan hərbçiləri erməni helikopterini vurublar.

Belə manevrlərin keçirilməsi faktının özü onun Ermənistan tərəfindən siyasi provokasiya olduğunu göstərir. Bu provokasiya heç də, ilk baxışda göründüyü kimi, Azərbaycana qarşı deyil, Rusiyaya və bütövlükdə Kollektiv Təhlükəsizlik haqqında Müqavilə Təşkilatına (KTMT) qarşı yönəlib. Ermənistan-Azərbaycan cəbhə xəttində hər gün atışmalar baş verir, hər iki tərəfdən snayperlər işləyir. Odur ki, atəşkəs xəttində, demək olar hər gün provokasiyalar qeydə alınır. Başa düşmək lazımdır ki, bu insidentlərdə erməni tərəfindən həlak olan yerkrapa-könüllülər rəsmən Ermənistanın hərbi qulluqçuları deyil, buna görə də rəsmi Bakı onlar barəsində Yerevana heç bir rəsmi tələb irəli sürə bilmir. Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus helikopterin məhv edilməsi ilə bağlı insident isə tamam başqa məsələdir. İstəsəniz, bunu təkcə bilavasitə Ermənistana qarşı deyil, həm də bütövlükdə Kollektiv Təhlükəsizlik haqqında Müqavilə Təşkilatına qarşı hərbi təcavüz aktı kimi interprotesiya etmək olar. Xoşbəxtlikdən, KTMT-nin flaqmanı olan Rusiya bu provokasiyaya uymadı və bu məsələ yalnız Ermənistan mətbuatında isteriya ilə başa çatdı.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Müdafiə naziri Gürcüstanın səfirini qəbul edib



***Noyabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Teymuraz Şaraşenidzeni qəbul edib.***

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Gürcüstan Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşesi polkovnik Şalva Turaşvili iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
Vüsal HƏMİDOVUNDUR**

(Əvvəli 1-ci səhifədə)



# Səngərin gecəsi-gündüzü olmur

- Silahlı Qüvvələrimizdə aparılan uğurlu islahatlar ordumuzun döyüş qabiliyyətinin gücləndirilməsini təmin edir. Hərbi hissələrin yeni texnikalarla, döyüş silahları ilə təchiz edilməsi, əsgərlərin məişət şəraitinin kifayət qədər yaxşılaşdırılması, təbii ki, döyüş hazırlığının artırılmasında mühüm vasitələrdəndir. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksəkdir. Məlum avqust hadisələri təsdiqlədi ki, əsgərlərimiz səngərlərdən üzü qarşı tərəfə yeriş eləmək istəyir. Torpaqlarımızı azad eləmək üçün. İstər Ali Baş Komandanın, istərsə də Müdafiə nazirinin ön cəbhəyə gəlməsi, əsgərlərlə səngərlərdə söhbət eləməsi şəxsi heyətin döyüş ruhunu kifayət qədər artırıb. Sonuncu döyüşlərdə düşmən əsgərlərimizin qətiyyətini, döyüş əzmini gördü, dərk elədi ki, gec-tez səngər deyib, təmas xətti deyib dayandığı yeri tərk etməlidi. Yoxsa can itirəcək...

- Bütün toplantıların bu hərbi hissədə keçirilməsi təsadüfi deyil, - zabit Fariz Hüseynov həmkarının fikrini tamamlayır. - Həm ərazi baxımından mühüm strateji əhəmiyyətə malik olduğuna, həm təmas xəttində relyefin mürəkkəbliyinə, həm də şəxsi heyətin döyüş hazırlığının yüksək olmasına görə. Bu yaxınlarda keçirilən təlim atışlarından narazı qalmağa haqqımız yoxdur. Tam məsuliyyəti ilə deyə bilərəm ki, Azərbaycan əsgəri dözümüylə, qətiyyətiylə, Vətən sevgisiylə heç bir dövlətin əsgərindən geri qalmır.

Səngərlərdə əsgərlərlə kəlmələşirik...

Öyrənirik ki, gecələr qarşı tərəfdə, sözün həqiqi mənasında, qorxu, vahimə yaşanılır. Düşmən dan yeri sökülənə kimi projektorlarla təmas xəttini işıqlandırır, anlaşılmaz səs-küy salır, məqsədsiz atışlar aparır. Yəni, biz də varıq. "Qorxu cana kafirdi" deyimi düşür yadıma. Onu da düşünürəm ki, düşmən bu minvalla çox duruş gətirə bilməyəcək. O qorxu, o vahimə, o səksəkə ürəyini partladacaq. Əsgər postda sevgidən dayanar. Ermənilərin əsgərləri orda cəzalandırılmaq qorxusundan imkanı olsa, baş götürüb qaçar da. Bəlkə də qaçır!...

Bölük komandiri kapitan Vüqar Məmmədovun təqdimatıyla əsgər Nicat Məmmədovla söhbətləşirik. Nicat Neft Akademiyasının məzunudu. Dörd aydı döyüş növbəsindədi. Düşüncələrindən qürurlanırıq:

- Göz gəzdirib ocağı yanan, işığı gələn evlər görəndə daha qətiyyətli oluruq, - deyir əsgər. - O evlərdə yaşayanların məhz bizə güvəndiyini dərk edirik. Onda döyüş növbəsində daha məsuliyyətli, daha sərvaxt oluruq. Əhali bizə güvəndiyi üçün təmas xəttinin yaxınlığında vahiməsiz, səksəkəsiz yaşayır. Valideynlərim Kəlbəcərdəndi. Kəlbəcəri mən də görmək istəyirəm. Həm də tezliklə. İşğal altında qalan torpaqlarımızın azad edilməsi bizim hər birimizin təkcə əsgəri vəzifəsi deyil, həm də vətəndaşlıq borcudu. Ali Baş Komandanımız əmr versəydi...

Çavuş Mahmud Salahov haqqında da tabor komandiri səxavətlə, sevgilərlə danışmışdı. Onunla danışmaq istədiyimizi bildirirəm. Kapitan Vüqar Məmmədov iki-üç addımlığımızda dayanmış hərbçini göstərib "budur Mahmud" deyir. Astaradandı, Əxsənəkəran kəndindən.

- Həmin gecəyə kimi ermənilər vaxtaşırı təmas xəttini keçməyə cəhd göstərmişdi, - dedi çavuş. - Hər dəfə də itki verib geri çəkilmişdi. Əsgərlərimiz onsuz da döyüş növbəsində ayıq-sayıq dayanır. Ermənilər bu dəfə daha çevik hərəkət eləmək, bizdə müəyyən çaşqınlıq yaratmaq istəyirdilər. Döyüş növbəsi çəkən əsgər mənə məlumat çatdırdı ki, düşmən qamışlıq tərəfdən yaxınlaşır. Mənim göstərişimlə düşmənləri bir qədər yaxına buraxdılar. Az sonra atəş əmri verdim. Neçə düşmən məhv edildi, bilmədik. Bizim itkimiz olmadı. Ermənilər təmas xəttindən geri qayıtdılar.

Dörd aydı hərbi xidmətdə olan Amil Quliyev deyir ki, döyüş növbətçiliyinə alışandan sonra çətinliyi olmur. "Vəzifə borcumuzu yerinə yetiririk".

...Canım Araz, səni sonuncu dəfə Zəngilan işğal olunanda görmüşdüm. Onda da "səsini içinə çəkib" sakit-sakit axırdın. Sənə pənah gətirənləri məğmun eləmirdin. İndi bir güllə məsafəsiycə aralıdan sənə göz qoyanların kimliyini duymusan deyəsən, onların çəkilib gedəcəyi günün həsrətindəsən. Düşmənlər qımıldananda dalğaların sahilə çırpılır, qəzəblənirsən. Az qalıb, Arazımız, az qalıb. Bir qədər də döz. Yenə dalğaların sahili sığallaycaq, yenə həsrətində olduqlarının nəfəsini duyacaqsan...

*-*-*

...Gəldik, gördük. Dönməz inamla qayıdırıq: Azərbaycan əsgəri səngərdə mətin dayanıb. Torpaqlarımız inamla, sevgilərlə qorunur, işğal altında qalan torpaqlarımız da mütləq azad ediləcək.

**Rəşid FAXRALI,
"Azərbaycan Ordusu",
fotolar
Namiq ARİFOĞLUNUNDUR**

*Nümunəvi xidmət*

# Gəmi komandirinin peşəkarlığı

***Hərb işində hər peşənin bir özəlliyi var. Bu özəlliyi duymaq üçün gərək peşəni sevə-sevə incəliyinə qədər öyrənəsən. Əgər yiyələndiyin sahəni sevib öyrənməsən, yaxud öyrənib sevməsən, bu peşədə uğur qazanmaq çətin olacaq.***

Bu yaxınlarda Hərbi Dəniz Qüvvələrinin təlimində iştirak etdiyim zaman daha çox diqqətimi cəlb edən gəmi komandirinin fəaliyyəti idi. Limandan ayrılaraq suları yara-yara dənizin ortasına doğru üzən gəmi vaxtında təyin olunmuş məkana çatmalıdır. Buna sözsüz, gəmi komandiri məsuliyyət daşıyır. Hələ yola düşməzdən qabaq baş leytenant Kamal Ağalarov heyətləri təlimatlandıraraq hər kəsin qarşısında ciddi tapşırıqların olduğunu diqqətə çatdırdı.

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin məzunu olan baş leytenant bildirdi ki, dənizçi olmaq onun uşaqlıq arzusu olub. Məhz həmin istək onu orta məktəbi bitirəndən sonra hərbi dənizçilik məktəbinə gətirib. Buraya qəbul olunanda sevincinin həddi-hüdudu olmayıb, özünü xoşbəxt sanıb. Beləliklə, kursant illərində dənizçi peşəsinin sirlərinə mükəmməl yiyələnib. Bu gün o, həvəslə gəmidə xidmətini yerinə yetirir. Daha sonra baş leytenant K.Ağalarov deyir:

- Hərbi gəminin komandiri olmaq ikiqat məsuliyyət deməkdir. Bunun üçün ilk



növbədə gəminin təhlükəsizliyini təmin etməliyəm. Gəmi heyətinin fəaliyyətinə daim nəzarət etmək, gəminin təyin edilmiş məntəqəyə vaxtında çatmasına və döyüş tapşırığının dəqiq yerinə yetirilməsi kimi vacib şərtlərə əməl edilməsi üzərimə düşən başlıca vəzifələrdir.

Zabit gəminin hərəkət istiqamətini, sürətini daim nəzarətdə saxlayır. Qoyulan tapşırığı vaxtında başa çatdırmaq üçün mövcud imkanlardan istifadə edir. Xidməti ilə yaxından tanış olduqca gəmi komandirinin istənilən döyüş tapşırığını yerinə yetirmək üçün yetərincə bilik və təcrübəyə malik olduğu bəlli olur. Baş leytenant K.Ağalarovun qeyd etdiyi kimi, müntəzəm təlimdə iştirak etməklə dənizdə istənilən döyüş tapşırığını yüksək səviyyədə icra etmək üçün vərdişlərə yiyələnirsən. Bu cür tapşırıqlar peşəkarlığımızı daha da artırır.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmənlə atışmada əsgərimiz şəhid olub

Noyabrın 20-də saat 12.45 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozublar.

Düşmənlə atışmada Silahlı Qüvvələrimizin 1995-ci ildə Astara rayonunda anadan olan əsgəri Əzizov Rüstəm İzzət oğlu döyüş postunda şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin valideynlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***21 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 63 dəfə pozulub.

Erməni silahlı bölmələri tərəfindən Ağdam rayonunun Şıxlar, Sarıcalı, Şuraabad, Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

(Əvvəli 1-ci səhifədə)

# Oleq Kuznetsov: Dağlıq Qarabağdakı silahlı qüvvələr xarici muzdlulardan ibarət qanunsuz silahlı dəstədir



Yaxşı məlumdur ki, qondarma "dağlıq qarabağ respublikası" de-yure beynəlxalq hüququn subyekti deyil. Onun mövcudluğu faktının qanuniliyini dünyanın başqa dövlətləri bir yana, hətta Ermənistan özü də tanımayıb (yeri gəlmişkən, noyabrın 14-də Ermənistan Milli Məclisində bu məsələ ilə bağlı keçirilmiş səsvermədə "dqr"-in tanınmasının lehinə bu ölkənin ali qanunvericilik orqanının 190 deputatından yalnız 8-i səs verib). Beynəlxalq hüquq normalarına görə, beynəlxalq səviyyədə tanınmayan heç bir dövlətin istər mülki, istərsə də hərbi aviasiyası ola bilməz, ən azı ona görə ki, belə dövlətin beynəlxalq səviyyədə tanınmış statusunun olmaması səbəbindən, o, obyektiv olaraq hava gəmilərinə livreyalar - fərqləndirici nişanlar vurmaq imkanından məhrumdur. Odur ki, helikopterin dünyada heç kimin tanımadığı "dqr"-ə məxsus olması fikri lap əvvəldən cəfəngiyatdır. Vurulan helikopterin Ermənistan HHQ-yə aid fərqləndirici nişanı olub. Deməli, o, Ermənistanın helikopteri olub. Vəssalam.

Bundan əlavə, "dağlıq qarabağ respublikası"nın hərbi strukturları BMT-nin bir neçə sənədində məhz "erməni separatçılarının silahlı birləşmələri" adlanır. Bu birləşmələrin təşkilati-ştat strukturu yaxşı məlumdur və "dqr-in hakimiyyət orqanları" bunu o qədər də gizlətmirlər. Həmin struktura dağ briqadası, tank alayı, habelə əlavə artilleriya və hava hücumundan müdafiə qüvvələri ilə birlikdə alay infrastrukturlu beş möhkəmləndirilmiş rayon daxil olduğunu öyrənmək üçün onların rəsmi saytına baxmaq kifayətdir. Lakin "dqr"-in özünün hərbi aviasiyasının olması barədə bir kəlmə də danışılmır. Belə bəyanatlar hərb işindən uzaq olan, hərbi əməliyyatlarda təcrübəsi olmayan insanları çaşdıra bilər. Lakin on minlərlə həmvətənim kimi mənim də belə təcrübəm var, ona görə də belə fikirlərin cəfəngiyat olmasını mən daha aşkar görürəm. Erməni helikopteri "İqla" səyyar zenit-raket kompleksindən raketlə vurulan zaman cəbhə xətti boyunca, sağ bortu Azərbaycan mövqelərinə tərəf yönəlmiş halda hərəkətdə olub. Helikopter vurulanda, pilotlar maşını idarə etmək imkanını itirəndə o, yerə düşməzdən əvvəl vintin fırlanma ətaləti hesabına Azərbaycan istehkamları tərəfə əyilməyə başlayıb. Vurulmuş helikopter həmişə sağ tərəfə düşür. Əgər helikopter sol bortu Azərbaycan mövqelərinə tərəf yönəlmiş halda uçsaydı, vurulandan sonra o, erməni mövqelərinin içərisinə düşməli idi. Bütün bunlar hərb işinin əlifbasıdır, lakin nədənsə müharibədə bunu unudurlar. Nəticədə təbliğatçılar öz hərbçilərinin səriştəsizliyini birtəhər ört-basdır etmək üçün yalan deməyə məcbur olurlar. Buna oxşar nümunələri lap yaxın vaxtlarda Ukraynada çox görmüşük, indi isə Ermənistanda da bunu müşahidə edirik.

Lakin, necə deyərlər, olan olub, keçən keçib, helikopterin qırıntıları və pilotların cəsədlərinin qalıqları Azərbaycan tərəfin sərəncamındadır. Bu qalıqların tanınması üçün əlamətlər çoxdur. Helikopterin mühərrikinin nömrəsi, bortdakı avtomatik yazı qurğuları ("qara qutular"), hər bir silah vahidinin nömrəsi, pilotların şəxsi sənədləri, şəxsi nömrə jetonları, heyət komandirinin uçuş tapşırığı, heyət üzvlərinin soyadları - bütün bunlar məlumdur. Azərbaycan hərbi əks-kəşfiyyat əməkdaşlarının müasir total informasiyalaşma şəraitində bütün bu kompleks informasiya sayəsində konkret hansı helikopterin vurulmasını, onun kimə məxsus olmasını və helikopterdə kimlərin uçmasını müəyyən etməsi heç də çətin deyildi. Buna görə, təəccüblü deyil ki, hadisənin ertəsi günü Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumatda göstərilirdi ki, vurulmuş Mi-24 helikopteri Yerevan yaxınlığında, "Erebuni" aerodromunda dislokasiya edilmiş 15-ci helikopter eskadrilyasına (32822 nömrəli hərbi hissə) məxsus olub, onun heyəti isə mayor Sergey Saakyan, baş leytenant Sarkis Nazaryan və leytenant Azat Saakyandan ibarət idi. Əgər kimsə daha ətraflı - heyət üzvlərinin şəxsiyyət vəsiqələrinin nömrələri, şəxsi nömrələri, silah vahidlərinin nömrələri və sair əlavə məlumatlarla maraqlanırsa, Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinə müraciət etmək olar. Bu xidmətdə hər cür ətraflı informasiya var.

Lənətə gəlmiş helikopter ehtimala görə, "İqla" səyyar zenit-raket kompleksinin raketi ilə vurulub. Bu kompleks bölüyün ağır silahıdır, ona xidmət edən heyət isə bilavasitə bu bölüyün komandirinə tabedir. Bu o deməkdir ki, döyüş təlimatlarına uyğun olaraq raketin buraxılması barədə qərarı yalnız iki nəfər qəbul edə bilər - səyyar zenit-raket kompleksinin heyət komandiri və bölük komandiri. Döyüş şəraitində bunu onlardan başqa heç kəs edə bilməz. Yuxarı vəzifəli rəis yalnız ən ümumi xarakterli "düşmən aviasiyası aşkar edildikdə döyüş sahəsinin hava hücumundan müdafiəsi tədbirləri görülsün" tipli əmr verə bilər, lakin düşmənin helikopterini filan tarixdə, filan yerdə və filan vaxtda vurmaq barədə sərəncam verə bilməz. Bu cür qərarlar bir neçə saniyə ərzində qəbul edilir və obyektiv olaraq belə qərarların yuxarı rəislərlə razılaşdırılması üçün heç bir halda vaxt olmur, çünki helikopterin sürəti saatda bir neçə yüz kilometr, bölüyün müdafiə sahəsinin eni isə yarım kilometrdir. Helikopter bu məsafəni təxminən 20 saniyəyə uçur. Mənə məlum olan budur ki, Ermənistana məxsus Mi-24 helikopterinin məhv edilməsi haqqında qərarı səyyar zenit-raket kompleksinin heyət komandiri, müqavilə əsasında xidmət edən çavuş verib. Onun öz hərbi borcunu vicdanla yerinə yetirərək atəş açması mətbuatda informasiya isteriyasına səbəb olub.

Üstəlik, Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu insident barədə yalnız bir neçə saatdan sonra xəbər tutub. Noyabrın 12-də o, Moskvada işgüzar səfərdə olub, MDB iştirakçısı olan ölkələrin müdafiə nazirlərinin müşavirəsində iştirak edib. Yeri gəlmişkən, həmin müşavirənin işində Ermənistanın müdafiə naziri general-polkovnik Seyran Ohanyan da iştirak edirdi. Buna görə hər iki nazir Mi-24-ün məhv edilməsindən praktiki olaraq eyni vaxtda, Moskvada xəbər tutub. Yaranmış şəraitdə onlar eyni otaqda olduqlarına baxmayaraq, bir-birinə iradlarını üzbəüz, göz-gözə söyləyə bilməyiblər. Çünki insident barədə heç nə bilmirdilər, indi Ermənistanın müdafiə naziri öz imicini necəsə saxlamaq üçün kütləvi informasiya vasitələrində informasiya isteriyası sifariş etməyə məcburdur. Mən bunun başqa bir ağlabatan səbəbini görmürəm.

Başa düşmək lazımdır ki, Ermənistan qoşunlarının hərbi manevrləri de-yure Azərbaycana məxsus, hazırda işğal altında olan Dağlıq Qarabağ ərazisində keçirilib. İşğal rejimi özlüyündə beynəlxalq hüquq normalarına ziddir, lakin dünyada buna hələ birtəhər dözürlər, işğal edilmiş torpaqlarda rəsmən hərbi təlimlər keçirilməsi isə bütün əndazəni aşmaqdır. Bugünkü şəraitdə bu ona oxşayır ki, Rusiya öz qoşunlarını Yeni Rusiyaya yeritsin və orada yerli könüllülərə ümumqoşun döyüşünün aparılması taktikasını öyrətsin. Dünyada necə hay-küy qalxacağını təsəvvür edirsinizmi? Bundan əlavə, bizim ölkə Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsini heç vaxt şübhə altına almayıb və son iyirmi il ərzində Dağlıq Qarabağ torpaqlarının dinc yolla Azərbaycanın yurisdiksiyasına qaytarılmasına tərəfdar olub. Yerevanda nə deyirlər, desinlər, Dağlıq Qarabağ Ermənistan deyil. Buna görə də Ermənistan silahlı qüvvələrinin və Dağlıq Qarabağın "erməni separatçılarının silahlı dəstələri"nin işğal etdikləri ərazilərdə Azərbaycan Ordusunun atəşi nəticəsində hansı itkilərə məruz qalmasından asılı olmayaraq, Rusiya heç vaxt və heç bir şərtlə, həlak olanların ailələrinə XİN xətti ilə başsağlığı verməkdən uzağa getməyəcək.

# XİN: Ermənistanın əsl məqsədi münaqişənin sülh yolu ilə həllinə imkan verməməkdir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev içərisində Azərbaycan siyasi elitası nümayəndələrinin olduğu vertolyotun ermənilər tərəfindən vurulmasının 23-cü ildönümü ilə bağlı bəyanat yayıb.

Nazirliyin mətbuat xidmətindən AzərTAc-a verilən məlumata görə bəyanatda deyilir: "1991-ci il noyabrın 20-də Azərbaycan Respublikasının Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində ermənilər tərəfindən içərisində Azərbaycan, Rusiya və Qazaxıstanın dövlət rəsmilərinin, deputatların və jurnalistlərin olduğu helikopter vurulmuşdur. Helikopterin vurulması nəticəsində 22 nəfər faciəli şəkildə həlak olmuşdur.

Aparılmış əməliyyat-istintaq tədbirləri nəticəsində helikopterin vurulmasının Ermənistanın təhlükəsizlik orqanları tərəfindən təşkil edildiyi müəyyən edilmişdir.

Ermənistanın Azərbaycana hərbi təcavüzünün tərkib hissəsi kimi sonrakı illərdə də bu ölkənin Azərbaycana qarşı terror əməlləri davam etdirilmiş, mülki şəxsləri daşıyan uçuş vasitələrinin vurulması həyata keçirilmiş, nəqliyyat vasitələrində, o cümlədən metroda 30-dan artıq terror aktı təşkil edilmişdir.

Ermənistan tərəfindən 1991-ci il noyabrın 20-də Qarakənd faciəsinin törədilməsi nəticəsində sülh təşəbbüsü ilə regiona səfər edən yüksək vəzifəli şəxslər və ictimai-siyasi xadimlərin fiziki məhvi həyata keçirilmiş və münaqişənin ilkin mərhələdə sülh yolu ilə həllinə imkan verilməmişdir. Bu fakt bir daha ona dəlalət edir ki, Ermənistanın əsl məqsədi münaqişənin sülh yolu ilə həllinə imkan verməmək və Azərbaycanın ərazilərini işğal etməkdir.

Bu ənənələrinə sadiq qalan Ermənistan tərəfindən bu gün də münaqişənin sülh yolu həlli ilə əlaqədar hər hansı təşəbbüs irəli sürülən zaman təxribatlara əl atılır və bütün vasitələrlə danışıqlar prosesinə xələl gətirilir".

# Dövlət sirrinin mühafizəsi üzrə vacib məlumatlar

***Bu məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli 742 №-li "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Sərəncamına əsasən hazırlanmışdır.***

Məlumatların hazırlanmasında əsas məqsəd Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttinə bitişik ərazilərdə (cəbhəboyu zonada) təhlükəsizlik tədbirlərini gücləndirmək, milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətinin sayı barədə məlumatların, eləcə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət sirri təşkil edən hərbi sahəyə aid digər məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısını almaqdan ibarətdir.

Müasir dövrdə informasiyanın yeni dəyər kəsb etməsi, strateji resursa çevrilməsi, onun qorunması, təhlükəsizliyinin təmin edilməsi məsələsini ön plana çıxarır. İnformasiya təhlükəsizliyi probleminin həlli yalnız texniki üsul və vasitələrdən istifadə bacarıqlarından deyil, həm də insanların mədəniyyətindən asılıdır.

Hazırda informasiyanın toplanması, saxlanılması, emalı və ötürülməsi proseslərinin informasiya kommunikasiya təhlükəsizliyindən istifadə etməklə həyata keçirilməsi imkanı konfidensial (gizli) informasiyanın asanlıqla başqalarının əlinə keçməsi təhlükəsini artırır. İnformasiya təhlükəsizliyinin təmin edilməsinin əsas şərtlərindən biri informasiyanın konfidensiallığı (gizliliyi) məsələsidir. İnformasiya resursları ilə işləyən insanlar ayrı-ayrı vətəndaşlara və ya təşkilatlara aid olan informasiyanın konfidensiallığını (gizliliyini) qorumaq üçün məsuliyyətlərini dərk etməlidirlər. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında ölkənin informasiya təhlükəsizliyinə təhdidlər ümumi və qısa formada əksini taparaq, məxfi informasiyanın mühafizə olunmasının koordinasiyasının milli təhlükəsizlik sektorunun əsas məsələlərdən biri olduğu vurğulanır və qeyd edilir ki, Azərbaycan Respublikası bundan sonra da dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətini davam etdirəcəkdir.

***Dövlət sirri haqqında əsas anlayışlar:***

**dövlət sirri** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır;

**dövlət sirri təşkil edən məlumatların daşıyıcıları** - dövlət sirri təşkil edən məlumatların rəmzlər, obrazlar, siqnallar, texniki qərarlar və proseslər şəklində əks olunduğu maddi obyektlər, o cümlədən fiziki sahələrdir.

Aşağıda göstərilən, hərbi sahədə dövlət sirri təşkil edən məlumatların yayılması yolverilməzdir və qanunla bu məlumatları yaymaq qadağandır. Ona görə ki, bu məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılması nəticəsində düşmən kəşfiyyatı yayılan informasiyaların köməyi ilə bir sıra kəşfiyyat məlumatlarını heç bir çətinlik çəkmədən




toplamaq imkanını əldə edir, bu da öz növbəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilər.

***Bu məlumatları yaymaq qanunla qadağandır:***

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, operativ və səfərbərlik üzrə yerləşdirilməsinə dair əməliyyat planlarının, döyüşü idarəetməyə dair sənədlərinin məzmunu, onların döyüş və səfərbərlik hazırlığı, səfərbərlik ehtiyatlarının yaradılması və istifadəsi haqqında;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuq planları, silahların və hərbi texnikanın inkişafının istiqamətləri, silah və hərbi texnika nümunələrinin yaradılması və modernləşdirilməsi üzrə məqsədli proqramların məzmunu və yerinə yetirilməsinin nəticələri haqqında;

- silah və hərbi texnika nümunələrinin taktiki-texniki xarakteristikaları və döyüşdə tətbiqi imkanları, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri və texnologiyaları haqqında;

- milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, hazırlıq və müdafiə olunma dərəcəsi, tikintisi və istismarı, habelə bu obyektlər üçün torpaq yerinin ayrılması haqqında;

- qoşunların dislokasiyası, həqiqi adları, təşkilati strukturu, şəxsi heyətinin sayı və onların döyüş təminatı, həmçinin hərbi-siyasi və ya əməliyyat şəraiti haqqında.

Eyni zamanda, "Dövlət sirri haqqında" Qanuna əsasən, dövlət sirri olan məlumatların əhatə dairəsinə daxil olmayan, lakin xarici ölkələrin xüsusi xidmət orqanlarının mülahizələrinə görə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən məlumatların da kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılması yolverilməzdir və qanunla qadağandır.

Dövlət sirrinin mühafizəsi hərbi hissə komandirlərinin, qərargah rəislərinin, idarə və müəssisə rəhbərlərinin əsas fəaliyyət istiqamətlərindən biridir və dövlət sirri təşkil edən məlumatların mühafizəsinin təşkilinə görə məsuliyyət onların üzərinə qoyulur. Bu səbəbdən də hərbi hissə komandirləri, qərargah rəisləri, idarə və müəssisə rəhbərləri dövlət sirrinin mühafizəsi sisteminin səmərəliliyini artırmalı, dövlət sirrinin mühafizəsinin dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğunu öyrənməli və təhlil etməli, dövlət sirri təşkil edən məlumatların mümkün axın (kənara sızma) kanallarını müəyyənləşdirib müvafiq tədbirlər həyata keçirməlidirlər.

Həmçinin, hərbi hissə komandirləri, qərargah rəisləri, idarə və müəssisə rəhbərləri hərbi hissələrdə keçirilən açıq tədbirlərin və kütləvi informasiya vasitələri üçün hazırlanan materialların qabaqcadan Müdafiə Nazirliyinin Mətbuat Xidməti ilə razılaşdırılmasını təşkil etməlidirlər.

***Dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət:***

- dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozan vəzifəli şəxslər və vətəndaşlar qüvvədə olan qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar;

- müvafiq dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri məlumatların qeyri-qanuni yayılması üzrə qərar qəbul edərkən qeyri-qanuni yayılmış məlumatın dövlət sirri təşkil etməsi haqqında ekspert rəyinə əsaslanırlar;

- hərbi sahədə dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılması nəticəsində dövlətin təhlükəsizliyinə ziyan vura bilən məlumatların yayılması faktı ilə bağlı materiallar üzrə keçirilən ekspertizanın rəyindən asılı olaraq materiallar hüquq mühafizə orqanlarına göndərilir;

- dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) və 284-cü (dövlət sirrini yayma) maddələrinə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsinə uyğun məsuliyyətə cəlb olunurlar.

Dövlətin təhlükəsizliyinin təmin olunmasında onun hər bir vətəndaşının rolu vacibdir.

Ona görə də Azərbaycan Respublikasının hər bir vətəndaşının, əsasən də cəbhəboyu zonada yaşayan vətəndaşların dövlət sirri təşkil edən məlumatları yayan, eləcə də dövlət sirri təşkil edən məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə verən, yaxud vermək məqsədi ilə oğurlayan, toplayan və ya saxlayan şəxslər barədə yaxınlıqdakı hərbi hissələrə, yerli hüquq mühafizə orqanlarına və təhlükəsizlik orqanına məlumat vermək müqəddəs borcudur.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Xəbərlər: hadisələr, - faktlar

### Brisbendə G20 sammiti başlayıb



Avstraliyanın Brisben şəhərində keçirilən tədbirin açılışı təntənəli mərasimlə müşayiət olunub. Rəsmi açılışdan sonra "iyirmilik" ölkələrinin liderləri ilk iclasa yollanıblar. AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, iyirmilik qrupu qlobal iqtisadiyyat və maliyyə məsələləri üzrə ixtisaslaşmış aparıcı beynəlxalq forumdur. Dünya üzrə ümumi daxili məhsulun 80 faizdən çoxu, ticarətin 75 faizi, əhalinin isə üçdə iki hissəsi G20 ölkələrinin payına düşür. Sammitdə qlobal iqtisadi və maliyyə məsələləri ilə yanaşı, Ukraynadakı böhranın, Ebola epidemiyası illə bağlı vəziyyətin də müzakirə olunacağı gözlənilir. Həmçinin sammit çərçivəsində liderlərin şəxsi görüşləri nəzərdə tutulur.

### Meksikada tələbələrin oğurlanması ilə bağlı qalmaqal getdikcə böyüyür



Meksikada etiraz aksiyaları səngimək bilmir. Aksiya iştirakçıları sentyabrın axırlarında İquala şəhərindəki nümayişlərdən sonra itkin düşmüş 43 tələbənin aqibəti barədə düzgün xəbər verilməsini tələb edirlər. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, itkin düşmüş tələbələrin valideynləri və dostları onların öldüyü barədə təkzibolunmaz sübutlar təqdim olunmayanadək istintaqın nəticələrinə inanmayacaqlarını bildiriblər. Noyabrın 20-də isə Meksikanın paytaxtı Mexiko şəhərində kütləvi aksiyaların keçiriləcəyi planlaşdırılır.

İtkin düşmüş tələbələrin bütün ölkə boyu aparılan axtarışları indiyədək bir nəticə verməsə də, hadisə yerinin yaxınlığında kütləvi məzarlıq aşkarlanıb. Argentinalı ekspertlər analizlərin nəticələri əsasında onlara verilən sümük qalıqlarının tələbələrə aid olmadığı qənaətinə gəliblər.

### İqlim problemi ilə bağlı tarixi razılaşma




Çin və Amerika Birləşmiş Ştatları Sakit Okean İqtisadi Əməkdaşlığı (ASİƏ) sammitində ABŞ prezidenti Barak Obama və Çin lideri Si Tsin Pin iqlimlə bağlı danışıqlar nəticəsində konkret razılığa gəliblər.

AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, razılaşma çərçivəsində Çin havaya atılan zərərli qazların miqdarını 2030-cu ildən sonra kəskin surətdə azaltmağı qarşısına məqsəd qoyub. Vaşinqton isə öz növbəsində 2025-ci ilədək zərərli qazların həcmini 26-28 faiz azaltmaq niyyətini bildirib. Ekspertlər isə mövcud tədbirlərin qlobal istiləşmənin sürətinin zəifləditməsinə kifayət etmədiyini və iqlim dəyişikliklərinin faciəvi nəticələrinin qarşısını almaq üçün təxirəsalınmaz addımlar atılmasının vacibliyini vurğulayırlar.

### Kosmik sensasiya: uçan aparat tarixdə ilk dəfə kometə enib



"Rozetta" kosmik aparatının modulu Çuryumov-Gerasimenko kometinə tarixi enişini uğurla başa çatdırıb və oradan ilk siqnalını göndərib. AzərTAc xəbər verir ki, uçan aparatın saniyədə 15 kilometr sürətlə hərəkət edən kometə enməsi tarixdə ilk belə hadisədir. 67R kometi 1969-cu ildə sovet astronomları Klim Çuryumov və Svetlana Gerasimenko tərəfindən kəşf olunduğundan bu kosmik cismə onların adı verilib.

"Filı" modulu ilə təchiz olunmuş "Rozetta" kosmik aparatı 2004-cü ilin mart ayında Cənubi Amerikanın Kuru kosmodromundan havaya qalxıb. Çuryumov-Gerasimenko kometinə 10 il 3 aydan sonra çatan süni peyk artıq yerə kosmik cismin səsini də göndərə bilib.

### Rusiya Fransanı hədələdi



Rəsmi Moskva Rusiyanın Fransaya sifariş etdiyi 2 ədəd "Mistral" tipli hərbi gəmini vaxtında çatdırmağı tələb edir.

Rusiya mətbuatının verdiyi məlumata görə, Rusiyanın Ukraynaya təcavüzünün ardınca Fransa "Mistral" gəmilərini Rusiyaya çatdırmağı təxirə salmışdı. Hazırda Rusiyanın yüksək dairələrindən Fransaya sifarişi noyabrın sonunadək çatdırmaq tələb olunub. Gəmilər çatdırılmadığı təqdirdə rəsmi Moskva Parisi kompensasiya tələb etməklə hədələyib.

Fransada hakimiyyətdə olan Sosialist Partiyasının birinci katibi Jan-Kristof Kambadelis Fransa ilə hədə-qorxu tonunda danışmağın yersiz olduğunu deyib: "Fransa müstəqil dövlətdir və "Mistral" gəmiləri ilə nə edəcəyini özü bilər".

### Türkiyə: "Ermənistan Şahbaz və Dilqəmi qaytarmalıdır"



"Ermənistan girov götürdüyü iki azərbaycanlını azad etməlidir". ANS PRESS-in məlumatına görə, bunu Türkiyə Jurnalistlər Federasiyası rəhbəri və İzmir Jurnalistlər Cəmiyyətinin sədri Atila Sertel deyib.

O, Azərbaycan vətəndaşları olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin işğal altında olan Kəlbəcərə ata-anasının məzarını ziyarət etmək üçün getdiyini, onların yanında olan Həsən Həsənovun ermənilər tərəfindən qətlə yetirildiyini xatırladıb. "Yaxınlarının məzarlarını ziyarət edənlərin tutulmasına heç bir hüquq icazə vermir. Üç aydan çoxdur sevdiklərindən uzaq qalan Dilqəm və Şahbazın tez bir zamanda azad edilməsini istəyirik. Qardaş Azərbaycan və qonşu Ermənistan arasında uzun müddətdir davam edən problemin yeni müharibəyə şərait yaratmadan bitməsinə ümid edirik".

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

## Qabaqcıl təcrübə

# "Ordu sıralarında xidmət etmək məsuliyyətli və şərəflidir"



***Hərbi hissələrdə ezamiyyətdə olarkən xanım hərbi qulluqçulara tez-tez rast gəlirik. Müxtəlif təyinatlı hərbi bölmələrdə onların əməyindən istifadə olunduğunun şahidi oluruq. "N" hərbi hissəsində də xanımlar müddətdən artıq hərbi qulluqçu kimi xidmət edirlər.***

Müddətdən artıq hərbi xidmət keçən əsgər Kəmalə Məmmədova da hər bir Azərbaycan vətəndaşı kimi Vətəninə xidmət etməkdən qürur duyur. Kəmalə Məmmədova 2014-cü ilin may ayından xidmətə başlayıb və operator vəzifəsində çalışır.

-- Daim forma geyinmək arzusunda olmuşam. Nəhayət ki, qismət oldu və ordu sıralarında xidmətə başladım. Ordu sıralarına çağırılmazdan öncə "formanın məsuliyyəti ağırdır" deyərək məni fikrimdən daşındırmaq istəyənlər də oldu. Lakin fikrimi dəyişmədim və həvəslə xidmətə başladım. Ordu sıralarında xidmət etmək məsuliyyətli olduğu qədər də şərəflidir, -- deyə əsgər Məmmədova bildirir.

Söhbətimiz zamanı məlum olur ki, Kəmalə Məmmədova operator vəzifəsinə təsadüfən təyin olunmayıb. O, bacarıq və keyfiyyətlərinə görə bu vəzifəyə təyin olunub.

-- Mənimlə birgə xidmətə başlayan xanım hərbi qulluqçular çox idi. Hər birimizlə ayrılıqda söhbətlər aparıldı. Söhbət zamanı hərbi xidmətə həvəsli olduğumu, kompüter kursunu bitirdiyimi, müxtəlif proqramları tam şəkildə mənimsədiyimi qeyd etdim. Bütün bunları nəzərə alaraq məni operator vəzifəsinə təyin etdilər, -- deyə K.Məmmədova qeyd etdi.

Kəmalə Məmmədova söhbətimizin sonunda hər bir Azərbaycan övladı kimi torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözlədiyini bildirdi.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Namiq ARİFOĞLUNUNDUR**

## Təlim

# Təlim əsgərlərə inam aşılayır...

***Qatar sürətlə geniş bir çöllükdən keçir. Bu yerlər biz tərəflərə yaman oxşayır. Dağlar, dərələr, yamaclar eyni biçimdədir. Bu yerləri gördükcə əsirlikdə qalan dağlarımızı, dərələrimizi, el-obamızı xatırladım. Doğulduğum yerlər bir anlıq gözlərim önündən keçdi. Düşmənə nifrət hissi ilə dərindən ah çəkdim.***



Hərbi hissəyə də bu hisslərlə gəlib çatdım. Nəzarət-buraxılış məntəqəsində özümü təqdim edib qərargaha yollandım. Burada çoxdan bəri bacarıqlı, təcrübəli zabit kimi tanıdığım Səxavət Əmirovla görüşdüm. O bildirdi ki, şəxsi heyət təlimlərdən yenicə qayıdıb. Təlimlər uğurlu və yaddaqalan oldu. Döyüşçülərimiz qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldilər.



Zabit Murad Muradovla birlikdə təlim meydanında məşğələ keçən şəxsi heyətin yanına yollandıq. Əsgərlər komandirin rəhbərliyi altında artilleriya qurğusu üzərində məşğələ keçir, tələb olunan vaxt çərçivəsində qurğunu "döyüş" vəziyyətinə gətirirdilər. Baş leytenant Rasif Həmzəyev bildirdi ki, təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyətə dərs və məşğələlər keçirik.

- Bugünkü dərsin mövzusu "Döyüş maşınının taktiki-texniki xüsusiyyətləri"-dir, - deyə baş leytenant söhbətinə davam etdi. - Mövzunu şəxsi heyətə geniş izah edirəm. Əsgərlər isə mövzuları dərindən mənimsəmək üçün dərsin gedişinə diqqətlə fikir verirlər. Əsgərlərin belə fəallığı bizi daha da ruhlandırır.

O, xidmətdə fərqlənən əsgərlərin də adlarını qeyd etdi. Bildirdi ki, əsgərlərdən Musa Musayev, Rauf İbrahimov, Pünhan Əlağazadə, Şəmistan Həsənli və başqaları üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.

- Bu gün Vətən torpaqlarını qorumaq biz əsgərlərin üzərinə düşür, - deyə heyət komandiri Musa Musayev söhbətimizə qoşuldu. - Bir neçə gün əvvəl genişmiqyaslı təlimlərdə iştirak etdik. Məşğələlərdə öyrəndiyimiz biliklər hər addımda köməyimizə gəldi. Təlimlərdə yaxşı nəticə göstərə bildik.

Sonra söhbətimi heyət üzvü Rauf İbrahimovla davam etdirdim. O bildirdi ki, ordu sıralarına Binəqədi rayonundan çağırılıb.

- Artıq xidmətimin xeyli hissəsi arxada qalıb. Bir müddətdən sonra əsgər dostlarımdan, komandirlərimdən ayrılıb doğmalarımın yanına qayıdacağam. Xidmətim ərzində hərbi biliklərə və döyüş vərdişlərinə yiyələndim. Ordu sıralarından tərxis olunsam da, Vətənin çağırışına həmişə hazır olacağam.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xatirələrdə əbədiləşən partizan

## Hərb Tarixi Muzeyində Cavad Həkimlinin 100 illik yubileyi qeyd edilib



***Bəşər tarixində öz dəhşətləri ilə yer tutan İkinci Dünya müharibəsi dövründə nəinki keçmiş sovet məkanında yaşayan xalqlar, o cümlədən faşizmdən əziyyət çəkən digər xalqlar da işğalçılara qarşı mübarizədə bir cəbhədə birləşmişdilər.***

Müharibənin qanlı-qadalı illərində xalqımızın minlərlə oğul və qızları da silaha sarılaraq, dünyanın faşizm köləliyindən xilas edilməsində qəhrəmanlıq nümunələri göstəriblər. Onlar ön cəbhədə olduğu kimi, düşmən arxasında da güclü partizan müharibəsinə qoşularaq, hərbi əsir düşərgələrinə gizli yollar tapır, orada antifaşist təşkilatlarda fəaliyyət göstərirdilər. Polşa, Çexoslovakiya, Yuqoslaviya, Bolqarıstan, İtaliya və Avropa ölkələrinin vətənpərvər insanları zorakı istismara məruz qalan hərbi əsirlərin düşərgələrdən qaçıb partizan dəstələrinə və müqavimət hərəkatına qoşulması cəhdlərinə hər vasitə ilə yardım göstərirdilər. Əfsanəvi partizan Mehdi Hüseynzadənin (Mixaylonun) komandiri olmuş, 162-ci "Türküstan" diviziyasının legioneri, İtaliya və Yuqoslaviya azadlıq hərəkatının qəhrəmanı "Ruska Çeta" rotasının rəhbəri, kapitan Cavad Həkimlinin də adı ölməz müharibə qəhrəmanı kimi hərb tariximizə qızıl hərflərlə həkk olunub.

Noyabrın 19-da əfsanəvi komandirin anadan olmasının 100 illik yubileyi Azərbaycan Hərb Tarixi Muzeyində geniş və təntənəli şəkildə qeyd edilib. Yubiley mərasimində Müdafiə Nazirliyinin, ali hərbi məktəblərin, hərbi hissələrin, Hərbi Akademiyanın, veteran təşkilatlarının, şəhər muzeylərinin nümayəndələri, həmçinin Cavad Həkimlinin yaxın qohumları iştirak edirdilər. Tədbiri giriş sözü ilə muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açaraq bildirib ki, Azərbaycan xalqının qəhrəman oğlu, Avropa müqavimət hərəkatının əfsanəvi iştirakçılarından biri olan Cavad Həkimlinin şərəfli həyat yolu Vətənin azadlığı naminə çarpışan hər bir vətəndaş üçün layiqli örnəkdir. İtaliya və Yuqoslaviyada əsirlərin faşist hərbi dəstələri ilə mübarizəsində onun göstərdiyi rəşadət və mahir təşkilatçılıq nümunələri danılmaz həqiqətdir.



Tədbirdə muzeyin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Nuru Məmmədovun, elmi işçi Nuranə Nəcəfovanın, ictimaiyyət nümayəndələrinin çıxışları, Cavad Həkimlinin yaxın qohumlarının təəssüratları dinlənilib.

N.Məmmədov "Azərbaycanlılar Avropanın antifaşist hərəkatında" adlı məruzəsində diqqətə çatdırıb ki, azərbaycanlı partizanlar Yuqoslaviya Xalq Azadlıq Ordusunun 31-ci diviziyası tərkibində döyüşüblər. Sonralar isə Cavad Həkimli xüsusi partizan bölüyünün komandiri təyin edilib. "Azərbaycanlı partizanlar faşizm üzərində böyük tarixi qələbənin qazanılmasında mühüm xidmətlər göstərib, özlərinin əfsanəvi qəhrəmanlıqları və igidlikləri ilə xalqımızın yaddaşında parlaq və əbədi iz qoyublar. Azərbaycan xalqı və Azərbaycan dövləti xalqların azadlığı uğrunda mübarizəyə öz həyatlarını fəda etmiş hər bir Vətən övladını heç vaxt unutmayacaq, onların əziz xatirəsini daim yad edəcəkdir", - deyə doktor Nuru Məmmədov məruzəsinə yekun vurdu.

Daha sonra Məhəmməd Həkimli atası haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüb: "Qarabağ müharibəsi başlayanda ailəmiz öz dədə-baba torpaqlarından məcburi köçkün salınmışdı. 1988-ci ildə Moskvaya köçdük. Atam o zaman Moskvada azərbaycanlıların etiraz aksiyalarında iştirak edirdi. 1989-cu ildən Bakıda yaşamağa başladıq. Burada atam Respublika Veteranlar Təşkilatının fəal üzvü kimi ali və orta məktəblərdə gənclərlə görüşər, maraqlı müharibə xatirələrindən danışardı. O, hər il aprelin 11-də M.Hüseynzadənin Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olduğu gün, 9 May Qələbə Günü, 2 noyabr - M.Hüseynzadənin həlak olduğu gün onun abidəsi önünə gələr, qırmızı qərənfillər qoyardı. 2004-cü ildə atamın 90 illik yubileyini qeyd etdik. 2006-cı ilin 27 fevral tarixində atam Bakıda dünyasını dəyişdi. Onu Bakıxanov qəsəbəsindəki məzarlıqda dəfn etdik. Artıq biz Qələbənin 70-ci ildönümü ərəfəsindəyik. Cavad Həkimli və onun bütün silahdaşlarının keçdiyi şərəfli döyüş yolu bu gün torpaqlarımızı erməni faşistlərindən azad etməyə hazır olan gəncliyə nümunədir. O gün olsun ki, işğal altında olan Vətən torpaqlarından düşməni qovub çıxaraq və düşmən üzərində tarixi qələbəmizi qeyd edək!"

Sonda Cavad Həkimlinin mənalı ömür və şərəfli döyüş yolundan bəhs edən film nümayiş etdirilib.

**Lalə ADİLQIZI,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015" Avropa Oyunları ilk idman elçilərimizi elan edib



"Bakı-2015" Avropa Oyunları noyabrın 19-da ilk Avropa Oyunlarının idman elçiləri olacaq 11 Azərbaycan idmançısının adlarını elan edib. İdmançılar öz idman növlərini və ölkələrini təmsil etmək üçün seçiliblər və marketinq kampaniyalarında iştirak edəcəklər. Seçilmiş idmançılar bunlardır: Suğra Müqabilzadə (oxatma), Nazim Babayev (yüngül atletika), Amil Həmzəyev (basketbol 3x3), Elgün Əlizadə və Murad Sultanov (velosiped idmanı), Səbinə Mikina (qılıncoynatma), Marina Durunda (gimnastika), Elmar Qasımov (cüdo), Ceyran Əliyeva (voleybol), Rövşən Bayramov və Mariya Stadnik (güləş). Azərbaycanın gənclər və idman naziri və "Bakı-2015"-in baş icraçı direktoru Azad Rəhimov deyib: "Bu idmançılar ölkənin ən yaxşılarından bir neçəsidir. Onlar Avropa Oyunlarının ən yaxşı idman elçiləri olduqlarını sübut edəcəklər".

## Azərbaycan boksçusu dörddəbir finalda



Koreya Respublikasının Jeju şəhərində qadınlar arasında boks üzrə dünya çempionatı davam edir. Azərbaycan Boks Federasiyasından AzərTAc-a bildiriblər ki, Avropa çempionu Yelena Vıstropova (69 kq) Taypey nümayəndəsi Çhen Çhia-Çunu məğlub edib. Bu Y.Vıstropovanın dünya çempionatında ikinci qələbəsi olub. Milli komandamızın üzvü dörddəbir finalda amerikalı Daniella Volfla qarşılaşacaq. Sabah boksçularımızdan Anna Əlimərdanova (54 kq) irlandiyalı Mikaela Volşla, Yana Alekseyeva (60 kq) isə ukraynalı Yuliya Tsiplakova ilə qarşılaşacaq.

## Gimnastımızın çıxış etdiyi komanda İtaliya çempionatında ikinci yerdədir



Azərbaycan gimnastı Marina Durunda klublararası ənənəvi "A1" İtaliya çempionatının növbəti mərhələsində iştirak edib. Gimnastımızın çıxış etdiyi "Armonia di Abrutso" klubu ikinci yerdə qərarlaşıb. Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, M.Durundanın gürzlərlə çıxışında 17.050 xal alması, "Armonia di Abrutso" komandası üçün əhəmiyyətli töhfə olub və komanda nəticələrə əsasən 99.450 xal qazanıb. Yarışın əsas mərhələsi noyabrın 28-30-da keçiriləcək.

## Atçılığın konkur növü üzrə "Xəzər Kuboku" keçiriləcək



"Sərhədçi Atçılıq Mərkəzi"nin qapalı manejində atçılığın konkur növü üzrə "Xəzər Kuboku" adlı beynəlxalq turnir keçirilir. AzərTAc xəbər verir ki, turnirdə Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya, Polşa, Ukrayna, İran və s. ölkələrin idmançıları iştirak edir. Yarışlarda ümumilikdə 25-ə yaxın idmançı 50-ə yaxın atı sınaqdan keçirəcək.

Turnirə Azərbaycan, Türkiyə, Bolqarıstan və İrandan dəvət olunan hakimlər kollegiyası nəzarət edir. Turnirin ümumi mükafat fondu 9500 manatdır.

## "Fəal ailəm, sağlam aləm" proqramının zona ailəvi idman yarışları olub



"Fəal ailəm, sağlam aləm" proqramı çərçivəsində Mingəçevir və Qax Olimpiya İdman komplekslərində zona ailəvi idman yarışlarının təsnifat mərhələsi keçirilib.

AzərTAc xəbər verir ki, idmanyönümlü şən, təhlükəsiz və inklüziv oyunlardan ibarət yarışlara 17 rayonu təmsil edən 51 nəfərdən ibarət ailələr qatılıb.

Zona təsnifat yarışının Mingəçevir bölgəsi üzrə qalibi Şəmkir komandası olub. İkinci yerdə Yevlax, üçüncü yerdə isə Gəncə kollektivləri qərarlaşıb. Qax bölgəsi üzrə isə qaliblər İsmayıllı, Zaqatala və Qəbələ təmsilçiləri olublar.

Yarışın qalibləri qiymətli hədiyyələr və diplomlarla mükafatlandırılıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

Tula Cihazqayırma Konstruktor Bürosu tərəfindən 12.7 millimetrli B-94 snayper tüfəngi hazırlanır. Bu, darağı beş gülədən ibarət olan silahdır. Düşmənin yüngül zirehli texnikasını, helikopterlərini və s. məhv etmək üçün nəzərdə tutulub. Rahat daşınması üçün yığılan qundaqla təchiz edilib. B-94 snayper tüfəngi adi optik nişangahdan başqa gecəgörmə nişangahı ilə də təchiz olunub ki, bu da qaranlıqda belə 600 metr uzaqlığa qədər məsafəyə atəş açmağa imkan verir. Tüfəngin çəkisi 11.7 kiloqram təşkil edir. Silahda 12.7 mm-lik gülələrdən istifadə edilir. Gülənin ilkin sürəti saniyədə 820 metrdir. Nişangah uzaqlığı isə 2000 metrə qədərdir.

* * *

İtaliyan ordusunun silahlanmasında 400-ə qədər "Sentauro" zirehli maşınları vardır. Rusiyanın Müdafiə Nazirliyi təkərli zirehli texnika istehsalı üzrə ixtisaslaşmış italyan şirkətlərindən biri ilə əməkdaşlıq edir. Rusiya rəhbərliyi 60 ədəd texnikanın alınması barədə məlumat verib. Zirehli maşınlar Rusiyada "Rıs" adı ilə tanınır. Onların istehsalı qarşılıqlı olaraq həyata keçirilir. Verilən lisenziya əsasında ildə 500 ədəd "Rıs" maşınlarının istehsalı nəzərdə tutulub. Artıq italyan maşınlarının alınması Rusiyanın 2011-2020-ci illər üçün nəzərdə tutulmuş dövlət proqramına daxil edilib. 105 mm toplu "Sentauro" maşınlarının istehsalına 90-cı ildə başlanılıb. Bu, yüngül kəşfiyyat maşınıdır.

* * *

Bu yaxınlarda Kalininqradın "Yantar" gəmiqayırma zavodunda Qara Dəniz Donanması üçün "Admiral Essen" gözətçi gəmisinin buraxılması münasibətilə təntənəli mərasim keçirilib. Gözətçi gəmiləri 2015-ci ildən başlayaraq donanmanın döyüş tərkibini daha da artıracaq və qarşıya qoyulan bütün tapşırıqları mükəmməl yerinə yetirəcək. Bu haqda Rusiya Hərbi Dəniz Qüvvələrinin komandanı admiral Viktor Çirkov məlumat verib. Onun sözlərinə görə, donanmanın tərkibinə dizel-elektrik sualtı qayıqları da daxil ediləcək.

* * *

150-dən çox Rusiya istehsallı vertolyot planetimizin müxtəlif regionlarında sülhməramlı əməliyyatlarda və BMT-nin humanitar missiyalarında iştirak edib. Onların belə tədbirlərdə iştirakı və müsbət nəticələr əldə etməsi bir daha Rusiya hərbi texnikalarının əvəzedilməz olduğunu göstərir. Bu haqda "Rusiya vertolyotları" holdinqinin direktoru Aleksey Mixeyev bildirib. Bu vertolyotlardan sərnişinlərin daşınmasında, müşahidə və monitorinqlərin keçirilməsində, təcili və tibbi təxliyyələrdə və s. əməliyyatlarda geniş istifadə edilib.

* * *

Rusiya ordusu hərbi qulluqçuların yerləşdiyi ərazi haqqında məlumat əldə etmək, həmçinin müxtəlif hərbi informasiyaların mübadiləsini həyata keçirmək üçün planşet qurğularla təchiz ediləcək. Bu haqda ölkənin Silahlı Qüvvələrinin rəsmisi X.Arslanov məlumat verib. O bildirib ki, Müdafiə Nazirliyi orbital qruplaşmanı doqquz ədəd hərbi təyinatlı telekommunikasiya peykləri ilə təmin edəcək.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

*Tibb xidməti*

# Hərbi tibb fakültəsində elmi konfrans keçirilib



***Müasir hərbi tibb elmi sahəsində uğurlu fəaliyyət istiqaməti seçilib. Hərbi həkimlərin beynəlxalq səviyyəli elmi dərgilərdə çap olunan məqalələri, keçirilən elmi konfranslar, səmərələşdirici təkliflərin sayının artırılması və s. göstəricilər bu sahədə inkişafın bariz nümunəsidir.***

Məlumat üçün bildirək ki, tibb xidmətində elmi işin əsas məqsədi sülh və müharibə dövründə hərbi qulluqçuların sağlamlığının qorunması və möhkəmləndirilməsinə yönəlmiş səmərəli tədbirlərin işlənib hazırlanmasından, müasir döyüş patologiyasının xüsusiyyətlərinin hərtərəfli öyrənilməsindən, yaralı və xəstələrə onların həyatının qorunub saxlanması və döyüş qabiliyyətinin tezliklə bərpa olunması məqsədilə tibbi yardımı təkmilləşdirməkdən ibarətdir. Tibb xidmətinin praktik ehtiyacından yaranan bu məsələlərin elmi istiqamətini müəyyənləşdirmək Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsinin qarşısında dayanan əsas vəzifədir. Azərbaycan Respublikası Müdafiə nazirinin əmrinə əsasən, hərbi tibb fakültəsi Silahlı Qüvvələrdə hərbi təbabət sahəsində elmi işin elmi-metodik mərkəzidir.

Noyabrın 21-də Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində "Müasir texnologiyaların hərbi cərrahiyyədə tətbiqi" mövzusunda elmi konfrans keçirilib.



Tədbiri hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Fəxrəddin Ağayev açaraq vurğuladı ki, elmi konfrans Azərbaycan Tibb Universitetinin və Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevin təsdiq etdiyi plana uyğun olaraq keçirilir. Elmi konfransın təşkilat komitəsinə rəhbərliyi hərbi tibb fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb elmləri namizədi, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov həyata keçirib.

Konfransda hərbi tibb fakültəsinin hərbi cərrahiyyə, hərbi terapiya, tibbi profilaktika, tibb xidmətinin təşkili və taktikası kafedraları, hərbi tibb fakültəsinin rezidentləri, kursantları və Azərbaycan Tibb Universitetinin müəllimləri iştirak edirdilər.

Konfransda hərbi tibb fakültəsinin hərbi cərrahiyyə kafedrasının rəisi, tibb elmləri namizədi, tibb xidməti polkovniki Niyazi İsayevin "Açıq kəllə-beyin travmalarının fəsadlaşmaları və müasir müalicə prinsipləri" və həmin kafedranın müəllimi, tibb elmləri üzrə fəlsəfə doktoru İlqar Ömərovun "Ətrafların magistral arteriyalarının odlu silah yaralanmaları zamanı təxliyyə mərhələlərində yardım və müalicənin müasir prinsipləri" mövzularında məruzələri dinlənildi.

Həkim-cərrah N.İsayev məruzəsinin aktual məqamlarından danışaraq konfrans iştirakçılarının nəzərinə çatdırdı ki, açıq kəllə-beyin travması almış yaralıların müayinələrində əsas prioritet məsələ diaqnostik müayinələrin dəqiq aparılmasıdır.

Məruzəçi İ.Ömərov isə müasir qansaxlayıcı kəmərin hazırlanaraq istifadəyə verilməsi haqqında səmərələşdirici təkliflə çıxış etdi.

Müzakirə və çıxışlardan sonra elmi konfrans öz işini bitirdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan diasporu Xocalı soyqırımının İsveç parlamentində müzakirəyə çıxarması üçün danışıqlar aparır

***İsveçdə fəaliyyət göstərən "Azərbaycan naminə" Cəmiyyətinin sədri Nadir Hollenbrand bu ölkənin parlamentinin Moderat Partiyasından deputatı Margareta Siderfelt ilə görüşüb.***

Diasporla İş üzrə Dövlət Komitəsindən AzərTAc-a bildirilib ki, görüşdə Xocalı soyqırımının İsveç parlamentinin gündəliyinə çıxarılması ilə bağlı müzakirələr aparılıb.

N.Hollenbrand görüşdə Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Azərbaycan şəhəri Xocalıda törətdiyi soyqırımı haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları hələ də öz cəzasını almayıblar. Halbuki Xocalı faciəsi XX əsrdə baş vermiş genosid və etnik təmizləmə hadisələrinin ən dəhşətlisidir. N.Hollenbrand bütün bunları nəzərə alaraq, soyqırımının İsveç parlamentinin gündəliyinə salınması və müzakirəyə çıxarılması üçün M.Siderfeltə müraciət edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qoşunların təmas xəttindəki son vəziyyət, bu günlərdə Azərbaycanın hava məkanında manevr edən Ermənistan silahlı qüvvələrinə aid helikopterin vurulmasına dair fikir mübadiləsi aparılıb.

N.Hollenbrand Xocalı soyqırımının İsveç parlamentinin gündəliyinə çıxarılması üçün parlament və hakimiyyət orqanlarının nümayəndələri ilə görüşlərini davam etdirəcəyini deyib.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu əsgər Adıgözəlov Qardaşxan Babaxan oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 375
Nüsxə 4570